## Xatirəsinin əbədiləşdirilməsi

| | |
|---|---|
| **1997, 15 aprel** | Heykəltaraş Ömər Eldarovun akademik Zərifə Əliyevaya həsr etdiyi "Elegiya" abidəsinin təqdimatı keçirilmişdir. |
| **1998** | Naxçıvandakı səhiyyə ocağına adı verilmişdir.<br><br>Qəbələ rayonunun xəstəxanasına adı verilmişdir. |
| **1999** | Binəqədi rayonunda Respublika Oftalmologiya Mərkəzinin yaxınlığındakı ərazidə salınmış yeni bulvara adı verilmişdir. |
| **2000, 28 aprel** | Bakının Binəqədi rayonu ərazisində Zərifə Əliyeva parkının açılış mərasimi olmuşdur. |
| **2002, 21 yanvar** | Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna adı verilmişdir.<br><br>Ukraynanın İrpen rayon mərkəzi küçələrindən biri akademikin şərəfinə adlandırılmışdır. |
| **2003** | AMEA-nın A.Qarayev adına Fiziologiya İnstitutunun qarşısında barelyefi açılmışdır. |
| **2004** | **4 iyun**<br>Ukraynada adını daşıyan küçədə abidəsinin açılış mərasimi olmuşdur.<br><br>**11 sentyabr**<br>Bərdə şəhərində adını daşıyan orta məktəb açılmışdır. |
| **2005** | **15 dekabr**<br>Estoniya hökumətinin qərarı ilə Tallin şəhərində akademik Zərifə Əliyeva adına Şərq Mədəniyyəti Xalq Universiteti təsis olunmuşdur.<br><br>**9 sentyabr**<br>Yardımlı qəsəbəsində akademik Zərifə Əliyeva adına Körpələr evi-uşaq bağçası istifadəyə verilmişdir. |
| **2006, 29 iyun** | Ucar rayonunda Qazıqumlaq kənd xəstəxanasına adı verilmişdir. |
| **2007** | Xaçmaz şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 8 nömrəli orta məktəb akademikin şərəfinə adlandırılmışdır.<br><br>Kəngərli rayonunun Şahtaxtı kəndində orta məktəbə adı verilmişdir.<br><br>**2 mart**<br>Qəbələ şəhərində açılan park onun adı ilə adlandırılmışdır.<br><br>**22 may**<br>Ankarada Keçiörən rayonu qadınlarının təşəbbüsü ilə yeni salınan parka adı verilmişdir. |

| | |
|---|---|
| **2008** | Bakının Zərifə Əliyeva küçəsində yaşadıqları binaya Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın xatirə lövhəsi vurulmuşdur.<br><br>Tallin şəhərində büstü açılmışdır.<br><br>Estoniya paytaxtındakı uşaq bağçalarından birinə adı verilmişdir.<br><br>**8 yanvar**<br>Adını daşıyan "Zərifə Əliyeva" gəmi-bərəsi suya buraxılmışdır.<br><br>**15 sentyabr**<br>Akademik Zərifə Əliyeva adına məktəb fəaliyyətə başlamışdır.<br><br>**26 sentyabr**<br>Saatlı rayonunda adını daşıyan mədəniyyət və istirahət parkı istifadəyə verilmişdir.<br><br>**7 oktyabr**<br>Masallı şəhərində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin regional şöbəsinin açılışı olmuşdur. |
| **2009, 4 avqust** | Zərifə Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutu "Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi" adlandırılmışdır.<br><br>**29 oktyabr**<br>İsmayıllıda salınan yeni parka adı verilmişdir. |
| **2011, 30 may** | Ukraynanın İrpen rayon mərkəzində (Kiyev vilayəti) "Zərifə Əliyeva adına dostluq parkı" açılmışdır. |
| **2012, 30 may** | Akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikası istifadəyə verilmişdir.<br><br>**8 iyun**<br>Ukraynanın İrpen şəhərində Şəhər Şurasının, Ukraynada Azərbaycanlı Gənclər İttifaqının təşəbbüsü və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin dəstəyi ilə Zərifə Əliyeva adına Dostluq Parkında Uşaq yaradıcılıq və istirahət klubunun açılışı olmuşdur. |
| **2013** | Estoniyanın paytaxtı Tallin şəhərində adı verilmiş uşaq bağçasının açılışı olmuşdur.<br><br>90 illik yubileyinə həsr olunmuş suvenir poçt bloku dövriyyəyə buraxılmışdır.<br><br>Xətai rayonunda akademik Zərifə Əliyeva adına uşaq bağçası üçün tikilmiş yeni binanın açılışı olmuşdur.<br><br>**7 fevral**<br>Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Zərifə Əliyevanın 90 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. |

| | |
|---|---|
| **2014, 4 aprel** | Ukraynanın paytaxtı Kiyev şəhərində akademik Zərifə Əliyeva adına Elmi-Tibbi Kitabxananın açılışı olmuşdur. |
| **2015** | Ukraynanın İrpen şəhərində xarici dil təmayüllü 12 nömrəli I-III dərəcəli şəhər ümumtəhsil məktəbinə (linqvistika məktəbi) adı verilmişdir. |
| **2016** | Gəncədə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin filialı açılmışdır. |
| **2017** | Ukraynanın Lvov şəhərində 1 saylı şəhər klinik xəstəxanasının poliklinikasında akademik Zərifə Əliyeva adına Oftalmoloji Mərkəzin açılışı olmuşdur. |
| **2018** | Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin dəmiryolu Səyyar klinikası fəaliyyətə başlamışdır. |
| **2018, 25 aprel** | Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümünə həsr edilmiş sərgi nümayiş etdirilmişdir. |
| **2018, 2 may** | Milli Kitabxanada “Zərifə Əliyeva. Biblioqrafiya” kitabının və “Zərifə Əliyeva – 95” adlı elektron məlumat bazasının təqdimat mərasimi keçirmişdir. |
| **2019** | Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Şəki filialı açılmışdır. |
| **2021, 22 may** | Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni binasının açılışı olmuşdur. |
| **2022, 28 aprel** | “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan “Ro-Pax” tipli “Zərifə Əliyeva” gəmibərəsi istismara verilmişdir. |
| **2022, 28 aprel** | Akademik Zərifə Əliyevanın anadan olmasının 99 illiyinə həsr olunmuş “Oftalmologiyanın aktual məsələləri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir. |
| **2022, 3 noyabr** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. |